https://doi.org/10.59849/3006-1342.2025.3.120
UOT 39

*Pərinaz İslam qızı Sadıqlı*
*Bakı Avrasiya Universiteti*
*tarix üzrə fəlsəfə doktoru*
*Email: perinazsadiqli@yahoo.com*
*ORCID ID: 0000-0003-3162-3414*

# QAFQAZ TÜRKLƏRİNİN MƏİŞƏTİNDƏ TOXUCULUQ SƏNƏTİ

*Qafqaz dünyanın ən qədim mədəniyyət ocaqlarından biri sayılır. Qafqazın türk xalqlarında sənətkarlığın bir çox sahələri çox qədim dövrlərdən başlayaraq güclü şəkildə inkişaf etmiş və həmişə öz rəngarəngliyi ilə seçilmişdir. Sənətkarlığın belə sahələrindən biri də toxuculuq olmuşdur. Toxuculuq deyəndə, birinci növbədə, xalçaçılıq yada düşür. Xalçaçılıq isə, öz növbəsində türk xalqlarının həyatında mühüm yer tutmuşdur. Tədqiqat zamanı əsasən ağacdan hazırlanan toxuculuq alətlərinin izahına geniş yer verilmişdir. Bu alətlərin adları verilmiş və izah olunmuşdur. Toxuculuqda xammal kimi daha çox qoyun yunundan istifadə edilir. Bildiyimiz kimi, türk xalqlarının demək olar ki, hamısında qoyunçuluq təsərrüfatı yüksək səviyyədə inkişaf etmişdir. Buna görə də toxuculuq sənətinin qoyunçuluğun yayıldığı bölgələrdə daha çox inkişaf etdiyi müşahidə olunur. Türk xalqları arasında toxuculuğun yayılmasının əsas səbəblərindən biri kimi bunu götürmək olar. Çünki toxuculuq üçün lazım olan ən vacib xammal yundur. Sənətkarlığın istənilən sahəsinin inkişafı isə, ilk növbədə, yerli xammalın mövudluğu ilə bağlıdır. Azərbaycanda da xalçaçılığın çox qədim və zəngin tarixi vardır ki, bunun özü də burada qoyunçuluğun güclü inkişafı və yunun bolluğu ilə ilişgili olmuşdur.*

*Məqalədə izah olunan toxuculuq məhsullarının adları, şəkilləri göstərilməklə aydın şəkildə izah olunmuşdur. Həmçinin məqalədə Şimali Qafqazın türk xalqlarına da ayrıca olaraq geniş yer verilmişdir. Belə ki, Şimali Qafqazın türk xalqlarının toxuculuq sənəti, xüsusilə xalçaçılıq, keçəçilik sənəti ilə bağlı tədqiqatlar aparılmış və oxşar məqamlar izah olunmuşdur.*

*Bu məqalənin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq Qafqaz türklərinin toxuculuq sənətində rast gəlinən bir çox eyniliklər və oxşarlıqlar üzə çıxarılmışdır ki, bu da həmin xalqların mədəniyyətinin eyni ilkin qaynaqdan başlandığını aydın şəkildə göstərir.*

*Açar sözlər:* Qafqaz, türk, toxuculuq, mədəniyyət, xalçaçılıq

## *Giriş*

Qafqazın türk xalqlarında sənətkarlığın bir çox sahələri çox qədim dövrlərdən başlayaraq güclü inkişaf etmiş və öz rəngarəngliyi ilə seçilmişdir. Bu sahələrdən biri toxuculuqdur. Toxuculuq deyəndə, birinci növbədə, xalçaçılıq yada düşür. Toxuculuq sənətinin inkişaf etməsi üçün, ilk növbədə, qoyunçuluq təsərrüfatının olması zəruridir. Toxuculuqda xammal kimi daha çox qoyun yunundan istifadə edilir. Bildiyimiz kimi, türk xalqlarının demək olar ki, hamısında qoyunçuluq təsərrüfatı yüksək səviyyədə inkişaf etmişdir. Buna görə də toxuculuq sənətinin qoyunçuluğun yayıldığı bölgələrdə daha çox inkişaf etdiyi müşahidə olunur. Türk xalqları arasında toxuculuğun yayılmasının əsas səbəblərindən biri kimi bunu götürmək olar. Çünki toxuculuq üçün lazım olan ən vacib xammal yundur.

Toxuculuqla bağlı məlumatlara müxtəlif mənbələrdə və qaynaqlarda rast gəlmək mümkündür. Belə dəyərli mənbələrdən biri də Mahmud Kaşğarinin "Divanü lüğat-it-Türk"

əsəridir. Həmin qaynaqda orta əsrlərdə türk xalqlarının müxtəlif məqsədlərlə, o cümlədən toxuculuqda yundan daha çox istifadə etdikləri haqqında bilgilər öz əksini tapmışdır.

Mahmud Kaşğarinin "Divan"ında yun sözünün "yünq və ya yung" şəkillərində işləndiyini görürük. Həmin söz hazırda Azərbaycan türkcəsində yun şəklində saxlanmışdır. Göründüyü kimi, yalnız "yung" sözünün sonundakı "g" samiti düşmüşdür.

İbrahim Qəfəsoğlu "Türk Milli Kültürü" adlı kitabında bozqır türk xalqının məişətini və mədəniyyətini öyrənən zaman burada mövcud olan sənətkarlıq sahələrindən və sənətkarlardan danışarkan xalçaçıların, kilimçilərin, corabçıların və s. adlarını çəkmişdir [8, s. 351].

*Əsas hissə*

Azərbaycanda da xalçanın toxunması üçün lazım olan əsas dəzgah hanalardır. Hana daha çox ağacdan hazırlanır. Hana şaquli vəziyyətdə dayanan bir cüt qoldan, alt və üst oxlarından və daban paralarından ibarətdir (şəkil 1).



Şəkil 1. *Hana*

Sadaladıqlarımızdan əlavə gücü ağacı, gücü çubuğu, varangələn, dal ağacı, ağız çubuğu, oxlov, yumaq ağacı xananın köməkçi hissələrinə aiddir [3, s. 473]. Bunların hamısı ağacdan hazırlanır. Varangələn sözünü bəzən düz başa düşmür və yanlış yazırlar. Bu bir yumru ağacdır, arğacı keçirmək üçün alt və üst ərişləri bir-birindən aralamaq məqsədilə onu aşağı-yuxarı sürüşdürürlər.

Toxunma üsuluna görə xalça-palazlar xovlu (ilməli) və xovsuz (ilməsiz) olmaqla iki yerə ayrılır. Əvvəlki dövrə nəzər salsaq görərik ki, Azərbaycanın bəzi ərazilərində "dəst xalça" (fərş) geniş yayılmışdır. Qarabağ bölgəsinin dəst xalçalarına bir ədəd orta xalı (uzunu 5-7, eni 2 arşın), "kənarə" adlanan bir cüt yan xalça (uzunu xalının boyuna müvafiq, eni 1 arşın), bir ədəd "sərəndaz" adlanan kəlləlik xalça aid idi. Hətta varlı ailələrdə "dəst xalı" və ya "payəndaz" adlanan ayaqlıqlardan da istifadəyə üstünlük verilirdi [3, s. 470].

Xalı miqyasca böyük olub, dəst toxunardı. Xalının uzunluğu 4,5-6 arşın olurdu [3, s.470]. Xovsuz xalçalara palaz, kilim, məfrəş, çuval, xurcun, heybə və s. aiddir [3, s. 471].

İsmayıl Məmmədov "Azərbaycan dilinin etnoqrafik leksikası" adlı monoqrafiyasında Azərbaycan türklərinin məişətində işlədilən hörmə və toxunma əşyaların adlarını çəkmişdir. Onlardan bir neçəsini nümunə göstərmək olar. Məsələn, çuval, xurcun, heybə və s. [11, s. 116]. Bundan əlavə eyni əsərində İ.Məmmədov Naxçıvan dialektində işlədilən "məfrəş" sözünə açıqlama verərkən yazır ki, o "yorğan-döşək, xalça-palaz və s. kimi əşyaları içinə yığmaq üçün işlədilən dördkünc çuvaldır, özü də palaz kimi toxunur [11, s. 117]. Məfrəş sözü Azərbaycanın Qərb bölgəsində də bu cür işlənir.

Bununla yanaşı Azərbaycanın qərb rayonlarında xalça növlərindən biri olan gəv(b)ələr geniş yayılmışdır.

ISSN: 3006-1342

Digər türk xalqlarında olduğu kimi, Şimali Qafqazın türk xalqları arasında da toxuculuq və xalçaçılıq sənəti geniş şəkildə yayılmışdır. Şimali Qafqazın türk xalqlarından olan noqay xalqının məişətində də keçəçilik sənətinin qədim kökləri var. Mənbələrdən əldə olunan məlumata əsasən demək olar ki, Noqay xalqı keçəçilik sənətini Qıpçaqlardan bəhrələnmişdilər. Şimali Qafqazın digər xalqları olan Qumıqlar, Qaraçaylar, Çərkəzlər və Balkarlar da Qıpçaq keçələrindən bəhrələnərək özlərinin keçəçilik sənətini inkişaf etdirmişlər. Çadırların içini bəzəmək, həm də soyuqdan qorumaq məqsədilə xalçalardan, keçələrdən, palazlardan istifadə edirdilər. Bu adət bütün türk xalqları arasında geniş şəkildə yayılmışdır. Belə ki, Noqaylarda "beldeme" adlanan keçələr ilə əsasən çadırların içini örtürdülər. "Yabur kıyğız" adlanan keçələrdən əsasən çadırın içinin üst hissəsini örtürdülər. Bu tip keçələrin yuxarı hissəsi dar, alt hissəsi isə geniş olur. Çadırın qapısının önünü "seppik kıyğız" adlanan keçəylə örtürdülər. Yeni evlənənlər üçün "otav" adlanan çadırlar bəzədilirdi. Bu çadırların girişini "esik kiyiz" adlanan keçələrlə örtürdülər [1, s. 53].

Azərbaycan xalqı da məişətdə keçələrdən istifadə etmişdir. "Kitabi-Dədə Qorqud" dastanında keçədən istifadə olunması haqqında məlumat verilmişdir. Dastanda göstərilir ki, "Bayındır xanın yigitləri Dirsə xanı qarşıladılar. Gətirib qara otağa qondurdular, qara keçə altına döşədilər, qara qoyun yəxnisindən önünə gətirdilər" [6, s. 20].

XIX-XX əsrin əvvəllərində keçələrdən yay aylarında istidən qorunmaq, qışda soyuqdan qorumaq, yaşayış evlərinin bəzədilməsi və s. üçün istifadə olunurdu. Keçəni hazırlamaq üçün ilk addım yunu kirişlə atmaqdır. İlk olaraq atıcı yayın ucunu yunun içinə qoyduqdan sonra taxtasının üstünü əski parçası ilə büküb qolunun altında saxlayırlar. Daha sonra toxmaqla kirişi vururlar. Toxmağı hər dəfə vurduqda tarım çəkilmiş kiriş silkələnərək yunu top-top (qom-qom) atırdı. Buna yunun didilməsi deyilir [3, s. 466]. Bu zaman müxtəlif alətlərdən istifadə edirdilər. Onlardan ən başlıcası yay və ağac toxmaqlardır. Ağac toxmağın baş hissəsi göbələk formasında hazırlanır və təxminən 2 kq-a qədər olurdu. Atıcı yay vasitəsilə yunu atırdı. Yayın hər iki ucuna kiriş bərkidilirdi. Kirişi əsasən qoyun bağırsağından hazırlayırdılar [3, s. 466].

Şimali Qafqazın türk xalqlarından olan Kumıklar məişətdə əsasən xovlu və xovsuz xalçalar, keçə xalçalardan istifadə edirdilər [10, s. 45].

XIX əsrdə qaraçaylarda "küyüz" adlanan xalçalar daha çox üstünlük təşkil edirdi. Üçkulan icmasında "kıbbalı" (xovsuz) və "tüyümçekli tüklü, çıklı katapalı küyüz" (xovlu, düyünlü) xalçalardan daha çox istifadə edirdilər. Bu xalçaları əsasən qaraçay cinsi olan keçilərin qılından hazırlayırdılar. Keçi qılını yuyub təmizlədikdən sonra iplik "çüykenekli urçuk" adlanan xüsusi mil üzərində əyirirdilər. Bundan sonra ip rənglənir və qurumağa qoyulurdu. Üfüqi toxucu dəzgahı "çebken-ağac", şaqüli toxucu dəzgahı isə "kerqiç" adlanır [5, s. 175]. Ufuk Tavkul Qaraçay-Bashan-Çegem dialektini araşdıran zaman "kiyiz" sözünün Çerek dialektində "keçə" kimi işləndiyini vurğulamışdır [12, s.170]. Eynilə Qazax türklərində də "kalı klem" (xovlu xalça), "arabı klem" və "altı aul klem" (xovsuz xalça) ifadələri işlənilir [4, s. 69].

XIX -XX əsrin əvəllərində qaqauz xalqlarında uzun ensiz xalçalar "qerqef", xalça "kilim", kilimlər "pala" adlanırdı [7, s. 56].

Xalça, xalı, palaz, kilim, fərməş, gəbə, heybə və s. toxumaq üçün əvvəlcə yun təmiz yuyulur, sonra daranır. Daraq ağacdan hazırlanır. Qədim dövrlərdə darağın dişləri də ağacdan düzəldilirdi. Dəmir dişli daraqlar sonradan yaranmışdır (şəkil 2).



Şəkil 2. *Yun darağı*

Daranmış yundan piltələr alınır. Piltələrdən sonra yun əyirilir. Əyirmək üçün cəhrədən istifadə edilir. Cəhrənin bütün hissələri ağacdan hazırlanır. O, bir neçə hissədən ibarət olur. Oturacağı döşəməyə oturur. Onun bir tərəfinə şaquli istiqamətdə iki qol başlanır. Qolların arasına təkər qoyulur və oxla qollara bərkidilir. Oturacağın digər ucuna iyi bağlamaq üçün iki gödək qol bərkidilir. İy kiriş vasitəsilə təkərə bağlanır. Təkərlər daha çox top adlanır. Topu fırlatmaq üçün oxa bitişik dəstək qoyulur (şəkil 3).



Şəkil 3. *Cəhrə, yun darağı və üç ədəd kirkid*

Cəhrədə əyirilən ip iyin üstünə yığılır və düyçə adlanır. İpi boyamaq üçün düyçələrdən kələf düzəldirlər. Bunun üçün qadınlar oturub ipi səkkiz şəklində iki dizinə dolayırlar. Kələfdə ipin hər yeri islanır deyə yaxşı boyanır. Boyaq məqsədilə də bir çox ağacların qabığından istifadə edilir. Məsələn, palıdı rəngi palıd qabığından alırlar. Rəngin adı da buna görə palıdıdır. Qırmızı rəngi alça qabığından alırlar.

Boyanmış kələfləri qurutduqdan sonra yumaq şəklində yumrulayırlar. Xalça, xalı, kilim və s. toxunarkan yumaqları hananın başına bağlanmış xüsusi ağacdan asırlar.

Toxuculuğun əsas dəzgahı hanadır. Hanalar ağacdan hazırlanır. Onun iki yan və iki də alt-üst ağacları olur. Yan ağacları dördkünc, alt və üst ağacları isə yumru yonulur. Yan və üst ağacları tərpənmir. Yalnız alt ağac xalçanı arxaya ötürmək üçün boşalıdılıb yuxarı qaldırılır və yenidən aşağı sıxılır. Bu məqsədlə ağac pazlardan istifadə olunur. Hanada nə isə toxunan zaman kücü ağacından, varangələndən, oxlovdan, kirkiddən və həvədən istifadə edilir. Onların hamısı ağacdan hazırlanır.

Arxa və qabaq ərişləri iplə kücü ağacına bağlayırlar. Kücü ağacını aşağı və yuxarı fırlatmaqla arxa və qabaq ərişləri bir-birindən aralayıb arasına arğac keçirirlər.

Bildiyimiz kimi, şifahi xalq ədəbiyyatı ən zəngin etnoqrafik mənbədir. Onlarda etnoqrafiyanın bütün sahələrinə aid örnəklər tapmaq mümkündür. Məsələn, keçəçilik sənəti ilə bağlı bir örnəkdə deyilir:

Atıcıyam, yayım var,
Çaxmağım var, qovum var.
Yunu yığın, gətirin,
Burda mənim ovum var. [3, s. 468]

Ağbaba və Şirvan folklor örnəklərində toxuculuqla bağlı çox sayda bayatılar var. Onlardan aşağıdakıları nümunə göstərmək olar:

Palazı naxışlaram,
Göl sallam, naxışlaram.
Səndən bir xəbər çıxsa,
Canımı bağışlaram.
***
Evimdə həsirim var,
Xəlçəm yox, həsirim var.
Əzrayıl, mənə dəymə,
Çox yetim-yesirim var.
***
İpimin boyağısan,
Rəngisən, boyağısan.
Amandı, köçüb getmə,
Bir evin dayağısan. [2, s. 16]

Azərbaycan dünyanın ən qədim mədəniyyət ocaqlarından biridir. Bu fikrin təsdiqi üçün Azıx və Qobustan mədəniyyətinin adını çəkmək bəs eləyir. Azərbaycanda həmçinin çox qədim dövrlərdən toxuculuq da çox güclü şəkildə inkişaf etmişdir. Kültəpədən eramızdan əvvəl IV-III minilliklərə aid edilən bir təbəqədən yunun əyirilməsi zamanı istifadə olunan və sümükdən hazırlanmış əl iyinin başı tapılmışdır. Bu nadir tapıntılardan biridir. Mingəçevir kurqanlarında aparılan qazıntılar zamanı eramızdan əvvəl birinci minilliyin ortalarına aid edilən yun və kətandan toxunmuş parçaların, həmçinin küp qəbirlərdən yerli toxucuların toxuduqları kobud parçaların tapılması Azərbaycanda toxuculuğun çox qədim tarixə malik olduğunu göstərir [9, s. 7-9].

*Nəticə*

Beləliklə, əlimizdə olan mənbələr və arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət nümunələri göstərir ki, Azərbaycanda və Qafqazın digər türk xalqlarında toxuculuq sənəti hələ altı-yeddi min il bundan əvvəl güclü şəkildə inkişaf etmişdir. Bu gün Azərbaycan türklərinin və Qafqazın digər türk xalqlarının qədim mədəniyyətini bir-birilə müqayisəli şəkildə öyrənmək üçün arxeoloji tapıntıların çox böyük əhəmiyyəti var. Toxuculuqda işlədilən dəzgah, qurğu və alətlərin əvvəllər hamısı bütün türk xalqlarında ağacdan hazırlanmışdır. Bunlara hananı, darağı, cəhrəni və onlarla digər köməkçi əmək alətlərini (oxlov, kirkid, həvə və s.) misal göstərmək olar.

Bu məqalənin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq Qafqaz türklərinin toxuculuq sənətində rast gəlinən bir çox oxşarlıqlar üzə çıxarılmışdır ki, bu da həmin xalqların mədəniyyətinin eyni ilkin qaynaqdan başlandığını aydın şəkildə göstərir.

ƏDƏBİYYAT

1. Adberciyeva A. Noqay keçesi // Türk soylu halkların halı, kilim cicim sanatı Uluslarası bilgi şölüni bildirileri// 1996, Kayseri.
2. Ağbaba və Şirvan folklor örnəkləri. (Toplayanı Əhməd Cəfərzadə). Bakı, 2023, 340 s.
3. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, 2007, 544 s.
4. Джанибеков У. Культура казахского ремесла. Алма- Ата. 1982. 144 с.
5. Карачаевцы. Балкарцы. Москва. 2014, 815 с.
6. "Kitabi-Dədə Qorqud (Tərtib edəni Həmid Araslı). Bakı. 1978.
7. Курогло С.С. Семейная обрядность гагаузов в XIX – начале XX вв. 1980, 138 с.
8. Qəfəsoğlu İ. Türk milli kültürü. Türkcədən uyğunlaşdıran və önsözün müəllifi prof. Dr. Ramiz Əskər. Bakı, 2017, 474 s.
9. Quliyev H.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda yun ipin xalq üsulu ilə boyadılmasının tarixi və öyrənilməsi haqqında. Azərbaycan Etnoqrafik Məcmuəsi. I buraxılış. Bakı, 1964, s. 7-38.
10. Мамедов К. Этнография народов Кавказа. Баку, 2013, 240 с.
11. Məmmədov İ. Azərbaycan dilinin etnoqrafik leksikası. Bakı, 2009. 272 s.
12. Ufuk T. Karaçay-Malkar dilinin diyalektleri. //Türk Dünyası Araştırmaları. 1989. s. 167-172.

УДК 39

*Париназ Ислам кызы Садыгли*
*Бакинский Евразийский Университет*
*доктор философии по истории*

## ИСКУССТВО ТКАЧЕСТВА В БЫТУ КАВКАЗСКИХ ТЮРКОВ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Кавказ, тюркский, ткачество, культура, ковроткачество

Кавказ считается одним из древнейших культурных центров мира. Многие виды ремёсел тюркских народов Кавказа получили мощное развитие с древнейших времён и всегда отличались своим многообразием. Одним из таких ремёсел является ткачество. Когда мы говорим о ткачестве, в первую очередь на ум приходит ковроткачество. Ковроткачество, в свою очередь, занимало важное место в жизни тюркских народов. В ходе исследования большое внимание уделялось описанию ткацких инструментов, которые в основном изготавливались из дерева. Приведены названия этих инструментов и даны их пояснения. В качестве сырья для ткачества в основном используется овечья шерсть. Как известно, овцеводство было (и остаётся) высоко развито практически у всех тюркских народов. Поэтому наблюдается, что искусство ткачества наиболее развито в регионах, где распространено овцеводство. Это можно считать одной из основных причин распространения ткачества среди тюркских народов, ведь важнейшим сырьём для ткачества является шерсть. Развитие любого вида ремесла прежде всего связано с наличием местного сырья. Ковроткачество в Азербайджане также имеет очень древнюю и богатую историю, что, в свою очередь, связано с мощным развитием овцеводства и обилием шерсти.

В статье чётко поясняются названия описываемых ткацких изделий и приведены их изображения. Отдельное и обширное место в статье отводится тюркским народам Северного Кавказа. Таким образом, проведено исследование ткацкого искусства

тюркских народов Северного Кавказа, особенно ковроткачества и валяния войлока, и освещены их общие черты.

Научная новизна данной статьи заключается в том, что впервые выявлены многие сходства и общие черты, обнаруженные в ткацком искусстве кавказских тюрков, что наглядно показывает: культура этих народов происходит из общего первоисточника.

UDC 39

*Parinaz Islam Sadigli*
*Baku Eurasia University*
*PhD in History*

THE ART OF WEAVING IN THE LIFE OF THE CAUCASIAN TURKS
*SUMMARY*

*Keywords:* Caucasus, Turkic, weaving, culture, carpet weaving

The Caucasus is considered one of the oldest cultural centres in the world. Many crafts among the Turkic peoples of the Caucasus have developed significantly since ancient times and have always been notable for their diversity. One such craft is weaving. When we speak of weaving, carpet weaving is the first that comes to mind. Carpet weaving, in turn, has played an important role in the lives of the Turkic peoples. In this research, considerable attention is paid to the description of weaving tools, most of which are made of wood. The names of these tools are provided and explained. Sheep's wool is used mainly as the raw material for weaving. As is known, sheep breeding has been highly developed among almost all Turkic peoples. Therefore, the art of weaving is particularly developed in regions where sheep farming is widespread. This can be considered one of the main reasons for the prevalence of weaving among the Turkic peoples, since wool is the most important raw material for this craft. The development of any type of craft is primarily related to the availability of local raw materials. Carpet weaving in Azerbaijan also has a very ancient and rich history, which is closely linked to the strong development of sheep breeding and the abundance of wool.

The article clearly explains and illustrates the names and forms of the weaving products described. It also devotes a separate and extensive section to the Turkic peoples of the North Caucasus. Thus, research has been conducted into the weaving art of the Turkic peoples of the North Caucasus, particularly carpet weaving and felting, and their common features have been highlighted.

The scientific novelty of this article lies in the fact that, for the first time, numerous similarities identified in the weaving art of the Caucasian Turks have been revealed, which clearly demonstrates that the cultures of these peoples originated from a common primary source.

***Daxil oldu: 16.10.2025-ci il***